

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

2 oktyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 38 (3750)

# Qürur və həmrəyliyin paytaxtı

**Sentyabrın 28-də qədim Gəncə şəhəri tarixi bir gün yaşadı - III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirildi. Bu, sadəcə bir idman bayramı deyildi. Bu gün həm də Azərbaycanın gücünün, qürurunun, iradəsinin nümayişinə çevrildi. Arenada əks-səda verən alqışlar təkcə idmançılarımızı deyil, bütün xalqımızı əhatə edən həmrəylik duyğusunun təzahürü idi.**



## Gəncədəki açılış mərasimi milli birliyin təntənəsi oldu

Açılış mərasimindən öncə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə üçün həssas, qəlb ağrıdan bir məqamı xatırlatdılar. 2020-ci ilin Vətən müharibəsi zamanı düşmənin raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və doğmalarını itirmiş, həmçinin yaralanmış uşaqlarla görüş onlara təkcə təsəlli deyil, həm də dövlətin qayğısının simvolu oldu. Uşaqların üzündə yaranan təbəssüm, qəlblərində yenidən ümid işığının parlaması həmin anın mənəvi gücünü göstərirdi. Mehriban xanımın incə bir ana qayğısı ilə balacalardan birinin çiyninə şal salması isə

> *“Gəncə səmasında dalğalanan üçrəngli bayraq göstərdi ki, Azərbaycan qalib xalqın evidir”*

əsl sevgi və şəfqət mesajı idi.

Açılış mərasiminə gəlincə, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Bayrağı arenaya gətirildi, Dövlət Himni səsləndirildi. Daha sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı keçirildi.

Azərbaycanı təmsil edən karateçi Asiman Qurbanlı və taekvondoçu Zemfira Həsənzadə mərasimdə dövlət bayrağını arenaya gətirdilər.

Xatırladaq ki, MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının qərarı ilə Gəncə şəhəri III MDB Oyunlarının “İdman Paytaxtı” seçilmişdir. Bu qərar Şuranın Belarus Respublikasının paytaxtı Minsk şəhərində keçirilmiş iclasında qəbul olunmuşdu.

Oyunlar oktyabrın 8-dək davam edəcək. Yarışların 12 idman məkanında təşkili nəzərdə tutulub, 23 idman növü üzrə 1694 medal uğrunda (505 qızıl, 505 gümüş, 684 bürünc) mübarizə aparılacaq. Bundan əlavə, qalib komandaların nəticələrinə xüsusi töhfə verən idmançıların ayrıca mükafatlarla təltif olunması planlaşdırılır.

I MDB Oyunları 2021-ci ildə Rusiya Federasiyasının Kazan şəhərində, II MDB Oyunları isə 2023-cü ildə Belarus Respublikasının paytaxtı Minsk şəhərində təşkil olunub.

Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarının Gəncədə keçirilməsi ölkəmizin beynəlxalq idman tədbirlərinin təşkili sahəsində artan nüfuzunu, idmana göstərilən dövlət dəstəyini və idman infrastrukturunun müasir tələblərə cavab verməsini nümayiş etdirməkdədir.

Açılış mərasimi çərçivəsində Gəncə Memorial Kompleksinin təqdimatı da həyata keçirilib. Kompleksdə Prezident İlham Əliyev və ailə üzvlərinin iştirakı ilə keçirilən tədbir Azərbaycan dövlətinin şəhidlərin xatirəsinə və onların ailələrinə göstərdiyi diqqət və qayğının bariz ifadəsi oldu.

Burada Prezident İlham Əliyevlə Nilay Əliyevanın əl-ələ, gülümsəyərək çəkilən görüntüsü bütün Azərbaycan xalqı üçün dərin rəmzi mənaya malik idi. Bu kadr babanın şəhidlərin ruhunu ehtiramla yad edən, eyni zamanda gələcək nəsillərə inamını əks etdirən bir lider obrazını canlandırdı. Qəhrəman şəhidlərimizi andığımız, qüssə ilə qürurun qovuşduğu həmin anlarda dövlətin xalqla birliyi, Prezidentin hər bir vətəndaşa göstərdiyi qayğı bir daha sübuta yetdi.

Həmin an dövlətimizin başçısı İlham Əliyev təkcə Nilayın yox, xalqımızın hər bir üzvünün əlindən möhkəm-möhkəm tutdu, birgəliyimizdən doğan gücü nümayiş etdirdi.

Bu Oyunların açılış mərasimi idman çərçivəsini aşaraq böyük mənəvi-siyasi məna qazandı. Gəncə səmasında dalğalanan üçrəngli bayraq, stadionda gurultulu alqışlar və sevincli baxışlar bir daha göstərdi ki, Azərbaycan qalib xalqın evidir.

# Strateji tərəfdaşlığımız güclənir

## Azərbaycan–İtaliya əlaqələrində yeni mərhələ başlayır

Sentyabrın 30-da Bakıda İtaliya Prezidenti Sercio Mattarellanın rəsmi qarşılanma mərasimi keçirildi. Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək və geniş tərkibdə görüşlər iki ölkə arasında mövcud tərəfdaşlığın miqyasını nümayiş etdirdi. Bu səfər strateji əməkdaşlığın yeni istiqamətlərini müəyyən edən addım kimi qiymətləndirilir.

Azərbaycan–İtaliya əlaqələrinin inkişafında enerji əməkdaşlığı xüsusi rol oynayır. TAP layihəsinin həyata keçirilməsində Romadan göstərilən siyasi dəstək Cənub Qaz Dəhlizinin uğurla reallaşmasına imkan yaratdı. Bu gün Azərbaycan qazı və nefti İtaliyanın enerji balansında aparıcı mövqe tutur, ölkəmiz İtaliyanın birinci neft, ikinci qaz tədarükçüsünə çevrilib. Enerji əməkdaşlığı Avropanın enerji təhlükəsizliyinə də mühüm töhfə verir.

Prezident İlham Əliyevin sözləri ilə desək, “bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı.” Bu məqam iki ölkə arasındakı əlaqələrin əsasını qarşılıqlı etimadın təşkil etdiyini bir daha təsdiqləyir.

Səfər zamanı yalnız iqtisadi məsələlər deyil, humanitar sahədə əməkdaşlıq da xüsusi diqqət mərkəzində oldu. Prezident Mattarella da bunu vurğulayaraq bildirdi ki, “əməkdaşlığımız sənaye və enerji ilə məhdudlaşmır. O, həmçinin mədəniyyət və təhsil sahələrini əhatə edir, bu da tərəfdaşlığımızın möhkəmliyini nümayiş etdirir.”

Oktyabrın 1-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Prezident Mattarella İtaliya - Azərbaycan universitetinin açılışında iştirak ediblər. Cəmi üç il ərzində reallaşdırılan layihə yüzlərlə tələbəyə yüksək keyfiyyətli təhsil almaq imkanı yaradır. Bu universitet sadəcə elm və bilik mərkəzi deyil, həm də iki xalq arasında mədəniyyətlərarası körpü rolunu oynayacaq, Azərbaycan ilə İtaliyanı yaxınlaşdıran canlı elçilər yetişdirəcək.

Səfər çərçivəsində keçirilən görüşlər və mətbuat üçün bəyanatlar göstərdi ki, Azərbaycan–İtaliya münasibətləri artıq ənənəvi diplomatiya çərçivəsini aşaraq çoxşaxəli strateji əməkdaşlığa çevrilib. Enerji, sənaye, mədəniyyət və təhsil sahələrini əhatə edən bu tərəfdaşlıq Avropa İttifaqı ilə əlaqələrin inkişafına da müsbət təsir göstərir.

Beləliklə, İtaliya Prezidentinin Bakıya səfəri iki ölkənin münasibətlərində yeni mərhələnin başlanğıcıdır.

# Prezidentdən şəhidlərə ehtiram

## Vətən müharibəsi şəhidləri yad edilib

Sentyabrın 27-də Anım Günü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev saat 12:00-da Gəncə Memorial Kompleksini ziyarət edib. Dövlət başçısı Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib.

# Avtobus parkı yenilənir

## Gəncə Avtobus Parkının açılışı olub

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-də “BakuBus” MMC-nin Gəncə Avtoparkının açılışında iştirak edib. Ümumi sahəsi 10 hektar olan parkda texniki baxış və təmir postları, yanacaq təsərrüfatı, müasir yuyucu kompleks yaradılıb. Layihə çərçivəsində 280 yeni avtobus gətirilib, 675 nəfər işlə təmin olunub.

# Yevlaxda yeni kompleks

## Prezident açılışda iştirak edib

Sentyabrın 27-də Prezident İlham Əliyev Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. 5,8 hektarlıq ərazidə inşa olunan kompleksdə stadion, universal idman zalları, üzgüçülük hovuzu, 42 yerlik mehmanxana yaradılıb.Hazırda MDB Oyunlarının boks yarışları burada keçirilir.

# Anım Günü paylaşımı

## “Şəhidlərimizin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq”

Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr – Anım Günü münasibətilə sosial şəbəkədə paylaşım edib. O, bildirib: “Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!”.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev sentyabrın 30-da polkovnik Anar Müslüm oğlu İsmayılova “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.*

*Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Bəhruz Vidadi oğlu Əhmədova “ədliyyə general-mayoru” ali hərbi rütbəsi verilib. Prezident İlham Əliyev bununla bağlı sentyabrın 30-da Sərəncam imzalayıb.*

*Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rafiq Musa oğlu Məmmədhəsənov 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev sentyabrın 29-da Sərəncam imzalayıb.*

Nazir vətəndaşları dinləyib....................2
Növbəti məsuliyyətli missiya.................2
Şəhid ailələri dövlətə əmanətdir............3
Həyatı filmə çevrilib..............................4

# Respublika Xəbərləri

### Hakimliyə namizədlərlə görüş keçirilib

Oktyabrın 1-də Milli Məclisdə hakimliyə namizədlərlə görüş keçirilib. Görüşdə məhkəmə sisteminin inkişafı, məhkəmə qərarlarının təkmilləşdirilməsi, onların ədalətin təminində və hüquq sistemindəki rolu barədə fikir mübadiləsi aparılıb.

### İqtisadiyyata böyük sərmayə

Son 20 ildə Azərbaycan iqtisadiyyatına 344 milyard ABŞ dolları sərmayə yatırılıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov bu barədə deyib ki, ölkənin neft və qaz asılılığını azaltmaq məqsədilə bu vəsaitin 210 milyard ABŞ dollarından çoxu qeyri-neft sektoruna yönəldilib.

### Zirvə görüşü Qəbələdə olacaq

Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü bu il oktyabrın 7-də Azərbaycanın Qəbələ şəhərində "Regional sülh və təhlükəsizlik" mövzusu çərçivəsində keçiriləcək. Bununla bağlı TDT-dən açıqlama verilib.

### Nə qədər zərər ödətdirilib?

Ötən ildən bu günə cinayət işləri üzrə vurulmuş maddi ziyandan 3 milyon 435 min manatın ödənilməsi, həmçinin 14 milyon 916 min manat məbləğində əmlak üzərinə həbs qoyulmaqla ümumilikdə 18 milyon 351 min manat məbləğində ziyanın bərpası təmin olunub. Baş prokuror Kamran Əliyev məqaləsində belə yazıb.

### Azad edilmiş ərazilər "yaşıllaşır"

İşğaldan azad edilmiş ərazilərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə işçi qrupun 10-cu iclası keçirilib. İclasda Şuşa, Kəlbəcər və Cəbrayıl şəhərləri, Cəbrayıl rayonunun Şükürbəyli və Horovlu kəndlərində, eləcə də Laçın və Kəlbəcərdə olan su elektrik stansiyalarında aparılmış monitorinqlərin nəticələri nəzərdən keçirilib.

### Qeyri-neft məhsullarının ixracı artır

Bu ilin yanvar-avqust aylarında Azərbaycan 210,7 milyon ABŞ dolları dəyərində qızıl ixrac edib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. 8 ay ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı da ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2,4 milyard ABŞ dolları təşkil edib.

### Avtobus yoluna daxil olmayacaqlar

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən bildirilib ki, oktyabrın 1-dən fəaliyyətə başlayan məktəb avtobusları avtobus zolaqlarına daxil ola bilməyəcək. Verilən məlumata görə, xüsusi zolaqlarda yalnız müntəzəm marşrutlar üzrə sərnişin daşıyan avtobuslar hərəkət edə bilər.

### Minalardan təmizləmə davam edir

Ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 100, tankəleyhinə 35 mina və 1661 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Mina və partlamamış hərbi sursatdan 1225,1 hektar ərazi təmizlənib.

### Vətəndaşlar utilizasiya maraq göstərir

Köhnəlmiş və istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu davam edir. Bu barədə "Təmiz Şəhər" ASC-nin yaydığı məlumatda bildirilir ki, ötən ilin oktyabr ayından başlayan utilizasiya prosesinə vətəndaşların böyük maraq göstərməsi nəticəsində cəmi 11 ay ərzində 10 mindən çox nəqliyyat vasitəsi utilizatorlara təhvil verilib.

### Qarabağda özünüməşğulluq

İşğaldan azad olunmuş ərazilərdə daha bir qrup sakin üçün özünüməşğulluq proqramı üzrə kiçik bizneslər yaradılıb. Məlumata görə, bu dəfə Ağdam, Xocalı, Laçın, Ağdərə rayonları və Şuşa şəhərində sakinlərə özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar təqdim edilib.

# Nazir vətəndaşları dinləyib

## Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 30-da və oktyabrın 1-də Sumqayıt Şəhər Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Sumqayıt şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Sonra şəhər polis idarəsinin inzibati binasında Sumqayıt şəhəri və digər rayonlardan gələn 367 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib. Nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 295 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.










# Növbəti məsuliyyətli missiya

## III MDB Oyunlarının keşiyindəyik

**Azərbaycanın yeddi şəhərində – Gəncə, Mingəçevir, Qəbələ, Şəki, Göygöl, Yevlax və Xankəndidə keçirilən III MDB Oyunları ölkəmiz üçün ilk növbədə idman bayramıdır. Bununla yanaşı Azərbaycan özünün həm də beynəlxalq təhlükəsizlik indeksində yerini bir qədər də möhkəmləndirmək fürsəti əldə edib. Çünki belə geniş miqyaslı tədbirin uğurla təşkil olunması üçün əsas şərtlərdən biri təhlükəsizlik sayılır. Bu istiqamətdə də ən böyük iş, təbii ki, daxili işlər orqanlarının üzərinə düşür.**

Hazırda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları oyunlar keçiriləcək şəhərlərdə birgə naryad qrupları şəklində xidmət aparırlar. Stadionların daxilindən tutmuş, şəhərlərin mərkəzi küçələrinə qədər bütün ünvan və ərazilər nəzarətə götürülüb. Qayəmiz idmançıların, qonaqların və tamaşaçıların təhlükəsizliyini təmin etmək, ictimai qaydanı pozacaq istənilən halın qarşısını vaxtında almaqdır.

Xüsusən nəqliyyatın hərəkətinə nəzarət, kütləvi axının idarə edilməsi, stadionların ətrafında izdihamın tənzimlənməsi, fövqəladə vəziyyətə hazırlıq kimi qabaqlayıcı tədbirlər oyunlar keçirilən bölgələrdə polisin gündəlik xidmətinin ayrılmaz hissəsidir. Yarışlara çoxsaylı tamaşaçı və iştirakçılar qatıldığından nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti daim diqqət mərkəzində saxlanılır, yol polisi əməkdaşları da gücləndirilmiş iş rejimində xidmət aparırlar. Bir sözlə, bütün zəruri tədbirlər görülür.

## Niyə Azərbaycan?

Belə mötəbər yarışların Azərbaycanda keçirilməsi təsadüfi deyil. Ölkəmiz bu gün regionda sabitliyin və təhlükəsizliyin təmin olunduğu ən etibarlı məkanlardan biridir. Azərbaycan polisi, eləcə də digər təhlükəsizlik orqanları Avropa Oyunları, dəfələrlə "Formula 1", İslam Həmrəyliyi Oyunları, COP29 və digər beynəlxalq tədbirlərdə öz peşəkarlığını sübut edib. MDB Oyunlarının ölkəmizə həvalə olunması həm də bu etimada söykənir.

Əvvəlki tədbirlərdən fərqli olaraq turnirin yalnız bir məkanda deyil, yeddi ayrı şəhərdə təşkil olunması isə polis üçün yeni təcrübədir. Əgər əvvəlki yarışlar daha çox Bakı mərkəzli keçirilirdisə, bu dəfə Azərbaycanın müxtəlif bölgələri diqqət mərkəzinə çəkilib.

Bu qədər geniş coğrafiyada yarışların yüksək təhlükəsizlik şəraitində davam etməsi onu təsdiq edir ki, bütün Azərbaycan ərazisində beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün lazımi potensial, o cümlədən etibarlı sabitlik mövcuddur. Bu fakt, daxili işlər orqanlarında koordinasiya və çevik idarəetmənin də göstərir. Polis əməkdaşları və hərbçilərimiz gecə-gündüz xidmət apararaq əmin-amanlığı və oyunların təhlükəsizliyini tam təmin edirlər. Bu, xüsusi peşəkarlıq və fədakarlıq tələb edən məsuliyyətli missiyadır.











## Təhlükəsizlik həm də ölkənin imicidir

Beynəlxalq tədbirin insidentsiz başa çatması istənilən ölkənin imici üçün olduqca güclü meyardır. Bu mənada Azərbaycanın artan qlobal nüfuzunda beynəlxalq yarışların tam təhlükəsizlik şəraitində başa çatmasının da rolu az olmayıb. Deməli, hazırda polis əməkdaşları III MDB Oyunlarında yalnız nizam-intizamın deyil, Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun da keşikçiləridirlər.

Bütün bunları nəzərə alanda III MDB Oyunlarını ölkəmizin idman tarixində əlamətdar hadisə, Azərbaycan polisinin gərgin əməyini isə Vətənə xidmətin növbəti təsdiqi saya bilərik. Məhz fədakar xidmətin sayəsində bu gün yüzminlərlə tamaşaçı və yüzlərlə idmançı üçün Xankəndiyə qədər idman şöləni yaşanır. Azərbaycan özünün böyük miqyaslı tədbirlərə çox qısa müddətdə hazırlaşmaqla yüksək təşkilatçılıqla keçirmək qüdrətinə və güclü təhlükəsizlik çətirinə sahib olduğunu bu oyunlar sayəsində dünya ictimaiyyətinə bir daha çatdırır.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Şəhid ailələri dövlətə əmanətdir

## Onlar xüsusi diqqət və qayğı ilə əhatə olunublar

“İtkisiz, Şəhidsiz Qələbə qazanılmır, torpaq işğaldan azad olunmur, bu, hər kəsə bəllidir. Biz qələbə qazandıq, biz qalibik! Bu qələbəni bizlərə bu gün adları dilimizdə əzbər olan, xatirəsini hörmətlə və ehtiramla yad etdiyimiz şəhidlərimiz, əlini, ayağını, gözünü, bir sözlə, sağlamlığını itirən qazilərimiz bəxş etdilər. 2020-ci ilin sentyabrında Xalqımız düşmənə elə bir dərs verdi ki, bunu tarix kitablarından Zəfər tariximizi oxuyan balalarımız öyrənəcəklər”.





Bu fikirlər 24-27 sentyabr tarixlərində Bakı, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində, Lənkəran, Bərdə, Zaqatala, Hacıqabul, Quba və Qəbələ rayonlarında yerləşən DİN-in Daxili Qoşunlarının hərbi hissələrində nazirliyin və DQBİ-nin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailə üzvləri ilə keçirilən görüşlərdə səsləndirilib.

Görüşlərdə qeyd olunub ki, bu gün ölkəmizdə sosialyönümlü layihələrin sayı və coğrafiyası genişləndirilib, əhalinin həssas təbəqəsinin, o cümlədən şəhid ailələrinin sosial məsələlərinin həlli istiqamətində genişmiqyaslı işlər görülür. İcra olunan sosial xarakterli layihələr şəhid ailələri və müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Şəhid xüsusi təyinatlı anılıb

## Anım günündə polis əməkdaşları da iştirak ediblər

**Sentyabrın 30-da Hərbi Memorial Məzarlıqda xüsusi təyinatlı qüvvələr mənsubu, ölümündən sonra “Qarabağ” ordeni ilə təltif edilmiş kapitan Həmid Hüseynzadənin anım günü qeyd olunub.**

Tədbirdə Müdafiə Nazirliyinin, Yasamal rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri, yaxınları, xidmət etdiyi hərbi hissənin və ictimaiyyətin nümayəndələri, Nəsimi RPİ-nin əməkdaşları, o cümlədən Vətən müharibəsi iştirakçıları və qaziləri iştirak ediblər.

Şəhidimizin qəbri üstünə Nəsimi RPİ-nin əməkdaşları xatirə çələngi qoyublar.

Qeyd olunub ki, xalqımızın və ordumuzun tarix qarşısında hesabatı olan Vətən müharibəsi XXI əsrin ən böyük tarixi hadisəsidir. Vətən müharibəsində qazanılan qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı öz qəhrəmanlıq ənənələrinə sadiqdir və ərazi bütövlüyünü bərpa



etmək üçün onun qarşısında heç bir güc maneə yarada bilməz.

Çıxış edən Nəsimi Rayon Polis İdarəsinin rəisi polis polkovniki Vüqar Ağayev bildirib ki, 30 il müddətində düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad edən hər bir Vətən oğlu, hər bir şəhidimiz bizim üçün doğmadır, əzizdir. Onlar döyüş meydanında göstərdikləri şücaətlə, qəhrəmanlıqla xalqımıza başucalığı gətirdilər, onun əyilən ruhunu dirçəltdilər.

Şəhidin atası Bağı Hüseynov tarixi ədalətin bərpa edilməsi üçün Müzəffər Ali Baş Komandanın əmrinə hazır olan igid oğulların, o cümlədən onun şəhid övladı Həmidağa Hüseynzadənin adının daim yaşayacağını və əbədilik qazanacağını diqqətə çatdırıb.

O, şəhid ailələrinin dövlətin nəzarətində olduğunu, xüsusi diqqət və qayğı ilə əhatə edildiklərini, şəhidlərin doğum və anım günü tədbirlərində dövlət qurumlarının onları tək qoymadıqlarını xüsusi vurğulayıb.

Anım günündən sonra şəhidin ruhuna ehtiram əlaməti olaraq ehsan süfrəsi təşkil olunub.

# Birləşmək yeganə yoldur

## Narkotiklərlə mübarizədə güclü ictimai dəstək vacibdir

Bu yaxınlarda Oğuz rayonunda bir ailənin dörd üzvünün narkotik becərilməsi və satışı ilə məşğul olduqları üçün saxlanılması barədə yayılan xəbər bizi bu mövzuya bir daha toxunmağa sövq etdi. Çünki bu hadisə növbəti dəfə göstərdi ki, narkotik təkcə bir insanı deyil, bütün ailəni məhv edən, dəyərlərin altını üstünə çevirən, kökləri içəridən qurd kimi gəmirən təhlükədir. Atanın, ananın, övladın və gəlinin eyni cinayətdə birləşməsi narkotikin ailə institutunu necə dağıtdığının, onun “ailəvi qırğın silahı”na çevrildiyinin növbəti acı nümunəsi oldu.

Təbii ki, belə bir təhlükəyə qarşı loyal münasibət ola bilməz, olmamalıdır da. Buna görə ölkəmizdə narkomaniya milli təhlükəsizliyə yönəlmiş ən ciddi təhdidlərdən biri kimi qiymətləndirilir. Prezident İlham Əliyevin imzaladığı “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” da bu mövqeyin bariz ifadəsidir.

Sözügedən proqram narkotik bəlasına qarşı vahid cəbhədə birləşməyə güclü zəmin yaradır. Burada əməliyyat tədbirləri ilə yanaşı, gənclərin maarifləndirilməsi, təhsildə və ailədə profilaktika, narkomanlıqdan əziyyət çəkənlərin reabilitasiyası kimi mühüm istiqamətlər yer alır. Yəni dövlət problemi kökündən həll etmək üçün hərtərəfli mübarizədə yeni mərhələ başladıb.

Hüquq mühafizə orqanları, o cümlədən polisin keçirdiyi tədbirlərlə aşkarlanmış faktlar indiyədək aparılan mübarizənin miqyasını təsəvvür etmək baxımından önəmlidir. Dövlət Proqramındakı rəqəmlərə nəzər salanda görürük ki, son beş ildə ölkəmizdə 47863 narkotik faktı aşkarlanıb. Bu faktların arxasında yüzlərlə dağılan ailə, məhv olan gənclik dayanır. Ümumilikdə 33,5 ton narkotik vasitə dövriyyədən çıxarılıb. Bu isə, təsəvvür edin ki, bir şəhəri zəhərləməyə yetəcək qədər böyük həcmdir.

Cinayət məsuliyyətinə 39 mindən çox insan cəlb olunub. Onların sırasında qadınların olması ayrı bir problemdirsə, əcnəbilərin olması probleminin böyük beynəlxalq miqyasını gözlər önünə sərir.

Haqqında bəhs etdiyimiz Oğuz hadisəsi narkotikin yalnız orqanizmi zəhərləmədiyinin, həm də düşüncələri, əxlaqı, münasibətləri məhv etdiyinin ən canlı sübutu idi. Bir ailə, bir ocaq, bir dəyərlər sistemi narkotikin əsirinə çevrilib. Buna görə polis keçirdiyi maarifləndirici tədbirlərlə narkomaniya ilə mübarizədə, əslində, ailə institutunu, milli-mənəvi dəyərlərimizi, gəncliyimizi, gələcəyimizi qorumaq hədəfinə çatmağa çalışır. Bunda hər bir valideynin, müəllimin, ziyalının və sadə vətəndaşın da üzərinə vəzifə düşür. Çünki narkotikə qarşı biganəlik gələcəyimizə qarşı biganəlikdir.

Dövlət bu savaşı qətiyyətlə aparır. Prezidentin sərəncamı, polisin əməliyyatları, ictimaiyyətdən gözlənilən güclü dəstək narkotik bəlasını kökündən məhv etməyə yönəlib. Bu mübarizə təkcə hüquqi yox, həm də mənəvi savaşdır. Ailə üzvlərini cinayətə sürükləyən narkotik “ailəvi qırğın silahı”dırsa, onun qarşısında dayanmaq həm də ümumxalq işidir. Azərbaycanın gücü yalnız ordusunda və iqtisadiyyatında deyil, həm də sağlam gəncliyində, möhkəm ailəsindədir. Onları qorumaq üçün isə birləşmək yeganə yoldur.

*Rəşad Mehtiyev*

# Tarixə yazılan gün

## Hörmətlə anır, ehtiramla yad edirik



Daxili İşlər Nazirliyinin gənc polis əməkdaşları və hərbi qulluqçuları 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Şəxsi heyət "Zəfər" parkında abidə önünə gül dəstələri düzüb.

# Polis Akademiyası birinci oldu

## Məqsəd gənclərin hüquqi biliklərinin artırılmasıdır

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması, prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” adlı hüquq viktorinası keçirilib. Tədbirin əsas məqsədi gənclərin hüquqi biliklərinin artırılması, konstitusiya və dövlət suverenliyi mövzularında maarifləndirilməsi, analitik düşüncə bacarıqlarının inkişaf etdirilməsi, həmçinin hüquq-mühafizə orqanları ilə ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi olub. Viktorinada Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Dövlət Universiteti, Qarabağ Universiteti, ADA Universiteti, Milli Aviasiya Akademiyası, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Dövlət Gömrük Komitəsi Akademiyası, Fövqəladə Hallar Nazirliyi Akademiyası və Heydər Əliyev adına Hərbi İnstitutun tələbə və kursantları iştirak ediblər. Sentyabrın 24-də Baş Prokurorluğun inzibati binalar kompleksinin konfrans zalında baş tutan viktorinada komandalar iki mərhələdə biliklərini sınayıblar.



Yarışın yekun nəticələrinə əsasən Daxili İşlər Nazirliyinin Polis Akademiyası birinci yerə layiq görülüb. Bütün iştirakçılar sertifikatlarla təltif olunub, qalib komandalar isə xüsusi mükafatlarla qiymətləndirilib.

# Təhlükəsizliyi qorumaq üçün

## Kür çayında DİN-in katerləri fasiləsiz xidmət aparır

III MDB Oyunları çərçivəsində Mingəçevir şəhərində keçiriləcək avarçəkmə yarışlarında təhlükəsizliyin yüksək səviyyədə təmin olunması məqsədilə Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən Kür çayında gücləndirilmiş xidmət təşkil olunub.

Xidmətə əlavə katerlər və canlı qüvvə cəlb edilib. Polis əməkdaşları su hövzəsində ictimai asayişin qorunması, hər hansı hüquqazidd əməllərin qarşısının vaxtında alınması, eləcə də köməyə ehtiyacı olan şəxslərə operativ yardım göstərilməsi istiqamətində fasiləsiz rejimdə fəaliyyət göstərirlər.

# Qaydaları pozmayaq!

## Məcburi dayanma zamanı təhlükəsizlik tədbirləri görülməlidir

Son vaxtlar texniki nasazlıq səbəbindən yolun hərəkət hissəsində dayanmış nəqliyyat vasitələrinin sürücüləri tərəfindən zəruri təhlükəsizlik tədbirlərinin görülməməsi nəticəsində digər hərəkət iştirakçıları üçün qəfil və gözlənilməz maneə yaranır ki, bu da çox zaman ağır nəticəli yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Qanunvericiliyin tələbinə əsasən, texniki nasazlıq və ya digər səbəbdən yolun hərəkət hissəsində dayanmaq məcburiyyətində qalan sürücülər:

-dərhal qəza dayanma işıqlarını yandırmalı,

-avtomobildən təhlükəsiz məsafədə qəza nişanı qoymalı,

-imkan daxilində nəqliyyat vasitəsini yolun kənarına çəkməlidirlər.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha xatırladır ki, bu sadə qaydalara əməl etməklə sürücülər həm öz həyatlarını, həm də digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini qoruya bilərlər.

# Zəfər dastanının son səhifəsi

## Onu yazanlardan biri Xankəndidə asayiş keşikçisidir

2023-cü il sentyabrın 19–20-də erməni separatçılarının Qarabağda törətdikləri genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərk–silah edilərək ərazilərimizdən çıxarılması məqsədilə bölgədə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun zəfər yürüşünü tamamlayan parlaq qələbə oldu.

Cəmi 1 sutka davam etsə də, tarixi qəhrəmanlıqlar sırasına qızıl hərflərlə yazılmış bu əməliyyat zamanı xarici havadarlarının dəstəyi ilə uzun illər boyu "təpədən-dırnağa" silahlanmış ermənilərin ön xətdə və dərinlikdə yerləşən əksər mövqeləri, davamlı atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Müqavimət göstərə bilməyəcəyini, məğlubiyyətin labüd olduğunu anlayan düşmən ağ bayraq qaldıraraq təslim oldu, Qarabağda erməni separatizminə həmişəlik son qoyuldu.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müqəddəs torpaqlarımızın azadlığını canından əziz bilən igid oğullar sayəsində bərpa edilibdi. Belə Vətən övladlarından biri, Ağcabədi rayon sakini Rəşad Quliyev uğrunda döyüşdüyü azad Qarabağda yenə də xidmətini davam etdirir. Bu dəfə isə Daxili İşlər Nazirliyinin əməkdaşı, Xankəndi Polis Şöbəsinin polis nəfəri kimi. Antiterror tədbirlərinin ikinci ildönümü günündə onunla asayiş keşikçisi olduğu Xankəndidə görüşdük, həyatı və keçdiyi döyüş yolu haqqında "Xalq qəzeti"nə danışdı.

Öyrəndik ki, Rəşad 2000-ci ildə Ağcabədi rayonunun Aşağı Qiyaməddinli kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətini Tovuz rayonundakı "N" saylı hərbi hissədə keçib. 2020-ci ildə ordu sıralarından tərxris olunsa da, hərbi xidmətə olan marağı, Qarabağda xuntanın cinayətləri onu yenidən ordu sıralarına qaytarıb. Bu dəfə



müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətə başlayan Ruslan 2021-ci ildə peşəkarlığını artırmaq üçün qardaş Türkiyədə komando kurslarına göndərilib.

Kursları müvəffəqiyyətlə bitirdikdən sonra Vətənə qayıdaraq kiçik çavuş rütbəsində xidmətini davam etdirib.

Döyüş yolu 2022-ci il martın 26-da Xocalı istiqamətində qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirilmiş Fərrux əməliyyatı ilə başlayıb. Məlum olduğu kimi, həmin uğurlu əməliyyat nəticəsində Xocalı rayonunun Fərrux kəndi işğaldan azad olunmuş, eyniadlı dağın ətrafındakı mühüm yüksəkliklər nəzarətə götürülmüşdü.

Daha sonra, yenə 2022-ci ilin 12-14 sentyabrında Azərbaycan-Ermənistan şərti sərhədində Ermənistanın silahlı qüvvələrinin davamlı təxribat cəhdləri səbəbindən baş verən Sentyabr döyüşlərinin də iştirakçısı olmuş Rəşad üçün ömrünün ən yaddaqalan, həyəcanlı və qürurverici anları isə antiterror tədbirlərində keçdiyi döyüş yoludur.

**Həmsöhbətimiz o günləri belə xatırladı:**



– Əlbəttə, Vətən müharibəsində qazandığımız şanlı qələbə nəticəsində uzun illər boyu torpağımıza göz dikmiş məğrur düşmən layiqli cəzasını almışdı. Ancaq Qarabağda hələ də separatçılar var idi və bu, belə davam edə bilməzdi. Ona görə də Ali Baş Komandanımızın əmrinə uyğun olaraq, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi məqsədilə antiterror tədbirlərinin keçirilməsi hər bir azərbaycanlının ürəyindən xəbər verdi.

Fəxr edirəm ki, mən də həmin döyüşlərin iştirakçısı olmuşam. Biz Ağdərə istiqamətində döyüşürdük. Hamımızda sonsuz ruh yüksəkliyi vardı. Sanki atışmaya, təhlükəyə, savaşa deyil, toy-bayrama gedirdik. Ürəyimizdə Vətən eşqi, torpaq sevgisi o qədər güclü idi ki, hamı özünü irəli atır, hər kəs daha öndə döyüşmək istəyirdi!

Sentyabrın 20-də, antiterror tədbirlərinin sona çatmasına az qalmış, özünün dediyi kimi, yüngül yaralanan qəhrəmanımız növbəti qələbə xəbərinə hospitalda sevinib. Onun Vətən naminə xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, "Şücaətə görə" medalı ilə təltif edilib. Rəşad uğrunda döyüşdüyü azad Qarabağda, Xankəndidə yaşayır, burada polis əməkdaşı kimi çalışır.

Şanlı əməliyyatın ildönümündə o bildirdi ki, taleyinə yazılmış, yeri-göyü lərzəyə salan o döyüşdə iştirakından qürur duyur:

– Qarabağın havası, suyu, təbiəti möcüzədir. Xoşbəxtəm ki, azadlığı uğrunda döyüşdüyüm torpaqlarda polis əməkdaşı kimi xidmətimi davam etdirirəm. Polis səngərsiz əsgərdir. Vətən borcu isə bitən deyil...

Həqiqətən də işğaldan azad edilmiş ərazilərdə polis kimi çalışmaq, qanunçuluğun keşiyində dayanmaq, hüquqi dövlət və konstitusiya prinsiplərinin bərqərar olunmasında iştirak etmək qürurverici olduğu qədər də, məsuliyyətli və şərəfli işdir. Söhbətimizin qəhrəmanı Rəşad Quliyevin timsalında bu şərəfli yolda gecə-gündüz demədən məsuliyyətlə, Vətən sevgisi ilə addımlayanların hamısına uğurlar arzulayırıq.

*Mahir Rəsuloğlu*

# Həyatı filmə çevrilib

## O, ötən əsrin informasiya döyüşçüsü olub

Dusko Popov 1912-ci ildə Serbiyanın Titel şəhərində, varlı və nüfuzlu bir ailədə dünyaya gəlib. Atası uğurlu biznesmen idi, fabrikləri, çoxlu sayda daşınmaz əmlakı, bir sözlə, zəngin sərvəti vardı. Popov kiçik yaşlarından xüsusi tərbiyə olunmuş, ingilis, fransız və alman dillərində sərbəst danışmağı bacarırdı.

Hüquq elminə olan marağı onu əvvəlcə Belqrada, sonra isə Almaniyanın Freiburg Universitetinə gətirir və o burada hüquq elminin incəliklərinə yiyələnir. Tələbəlik illərində həyatının axarını dəyişəcək hadisələrlə qarşılaşır ki, onlardan da biri nasistlərin hakimiyyətə gəlişi idi. Lakin Popov onların ideologiyasına qarşı öz narazılığını açıq şəkildə ifadə etməkdən çəkinmir, hətta onlara qarşı çıxırdı. Məhz bu cəsarəti sonradan onun casusluq yoluna qədəm qoymasına səbəb oldu.

### Casusluğa doğru ilk addımlar

Berlin universitetində tanış olduğu və alman kəşfiyyatı olan Abver üçün casusluq edən Johann Jebsen adlı dostu 1940-cı ildə ona təklif etdi ki, onunla birlikdə həmin təşkilatda çalışsın. Popov bu fürsəti əldən vermədi və Almanların ona olan inamından yararlanmaq qərarına gəldi. Çünki o, artıq Britaniya kəşfiyyat xidməti olan MI6 ilə əlaqədə idi və onlara lazımi məlumatları ötürürdü.

Beləcə Popov ikili agent oldu. O, həm almanlarla, həm də ingilislərlə işləyirdi. İngilislər ona "Trisikl" kod adını vermişdilər.

### Casusluq dünyasında böyük oyunlar

Popovun "işi" şahmat taxtasına bənzəyirdi. O, çox riskli və ağıllı gedişlər edərək müharibənin taleyini dəyişdirəcək nəticələrə imza atırdı. Necə deyərlər, almanlara yalan məlumatlar ötürür, onları çaşdırırdı. Onun ən böyük uğurlarından biri Normandiya əməliyyatı ərəfəsində oldu. Popov almanları inandırdı ki, hücum başqa ərazidən həyata keçiriləcək. Buna inanan Alman ordusu Normandiya istiqamətində hücum olanda hazırlıqsız və çarəsiz vəziyyətdə qaldı.

1944-cü ildə ABŞ-a göndərilən Popov orada fəaliyyət göstərmək əmri aldı. Onun verdiyi məlumatlar ABŞ-ın təhlükəsizlik orqanları üçün böyük əhəmiyyət daşıyırdı. Lakin FBI rəhbəri Edgar Hoover onun qadınlara, kazinoya marağından, bahalı həyat tərzindən narahat idi. Ona görə də Popova tam güvənmirdi.



### "Ceyms Bond"un ilham mənbəyi

Popov həm də əyləncə və lüks həyatı ilə də tanınırdı. Bahalı otellər, sürətli maşınlar, gözəl qadınlarla münasibətlər onun gündəlik həyatının bir hissəsi idi. Bu həyat tərzi yazıçı I an Flemingin diqqətini çəkdi. Fleming Popovu tanıyırdı və onun fəlaiyyətindən ilhamlanaraq məşhur Ceyms Bond obrazını yaratdı. "007" kod adlı cəsur, cazibədar, ağıllı və təhlükəli casus obrazı məhz Dusko Popovun gerçək həyatına çox bənzəyirdi.

### Müharibədən sonra...

Müharibə bitdikdən sonra Popov casusluq fəaliyyətini dayandırdı. O, Fransaya köçdü, ailə həyatı qurdu və bizneslə məşğul oldu. 1974-cü ildə öz həyatını qələmə alaraq "Spy/Counterspy" adlı kitab nəşr etdirdi. Kitabda onun həyatında baş verən bir çox sirli və təhlükəli əməliyyatlardan bəhs olunurdu. Məşhur casus 1981-ci ildə, 69 yaşında Fransada dünyasını dəyişdi.

Dusko Popovun həyatı təkcə casusluq fəaliyyəti ilə deyil, həm də xarakteri, cəsarəti və dünyagörüşü ilə yadda qalıb. O, heç vaxt əlinə silah almayıb, amma ən böyük döyüşlərdən birində, İkinci Dünya Müharibəsində gizli informasiyaların döyüşçüsü olub. Onun casusluq fəaliyyəti minlərlə insanın həyatını xilas edib.

Popovun həyatı bizə göstərir ki, casusluq yalnız filmlərdəki kimi deyil, real həyatda o, çoxlu risk, soyuqqanlılıq, iti zəka və dəmir iradə tələb edən çətin bir yoldur.

*Aytən Tahirova*
*polis kapitanı*

# Ünvanına çatan məktublar...

## Vətəndaş-polis münasibətlərinin təməli inamdır, etibardır, etimaddır

Əcnəbi vətəndaş Dabiri Amirhossein DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında pulqabısını itirməsilə bağlı "102" Xidməti-zəng Mərkəzinə müraciət etdiyini, polis əməkdaşlarının operativliyi nəticəsində qısa müddətdə pulqabısının tapılaraq ona təhvil verildiyini qeyd edir, müraciətinə həssas yanaşılmasına görə Səbail RPİ-nin 39-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Elvin Muradov DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında üzləşdiyi problemlə bağlı polisə müraciət etdiyini, operativ tədbirlərin həyata keçirildiyini qeyd edir və müraciətinin müsbət həll olunaraq narahatlığına son qoyulmasına görə Nərimanov RPİ-nin 16-cı Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Gədəbəy rayon sakini Məhəmməd Əliyev müraciətinin obyektiv araşdırılmasına görə Gədəbəy RPŞ-nin əməkdaşlarına təşəkkür edir.

Sosial şəbəkə istifadəçisi Ülvan Musayev DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar müraciətə çevik reaksiya verilərək müsbət həll olunmasında göstərilən köməkliyə görə Xətai Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi Nüranə Əzizova DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında müraciətinə operativ baxılaraq onun müsbət həll edilməsində göstərilən köməkliyə görə Pirallahı Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

# Avropa üçüncüsü oldu

## Qarşıda həmkarımızı daha məsuliyyətli yarışlar gözləyir

Ölkəmiz üçün böyük tarixi əhəmiyyət daşıyan bir gündə - Sentyabrın 27-də Macarıstanın Debretsen



şəhərində kyokuşinkay karate üzrə Avropa çempionatı keçirilib.

Qitənin ən güclülərinin gücünü sınadığı, 500-dən çox idmançının qələbə uğrunda mübarizə apardığı yarışda ölkəmizi təmsil edən yığma komandamız uğurlu nəticələr əldə edib.

Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Solmaz Zeynallı 59 kiloqram çəki dərəcəsində Polşa və İspan idmançılarına göz açmağa aman verməyib. Yarım final döyüşündə isə İsveç idmançısına məğlub olub. Həmkarımız və digər idmançımız Səlahət Həsənov (80 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, Solmaz Zeynallı Gənclər arasında Dünya Kubokunun sahibi, Avrasiya çempionu, Polşada baş tutan U-22 kateqoriyasında Avropa Çempionatının və Litvada keçirilən Avropa Çempionatının üçüncüsüdür.

# Avropada ilk…

## Süni intellektlə bağlı qanun qəbul etdilər

İtaliyada süni intellektdən istifadəni tənzimləyən qanun qəbul edilib. Bu barədə məlumatı "The Guardian" yayıb. Bununla da, İtaliya Avropa İttifaqında belə bir qanun qəbul edən ilk ölkə olub.

Bildirilib ki, burada məqsəd süni intellektdən şəffaf və təhlükəsiz istifadəyə töhfə vermədir.

Qanunla süni intellektin köməyi ilə yaradılmış və yaxud dəyişdirilmiş zərərli məzmunun qanunsuz olaraq yayılmasına görə 1 ildən 5 ilədək həbs cəzası nəzərdə tutulur.

Bununla yanaşı, bu texnologiyadan fırıldaqçılıq və şəxsi məlumatların oğurlanması da daxil olmaqla, cinayət əməllərinin törədilməsində istifadəyə görə daha sərt cəzalar tətbiq ediləcək.

Məqalə müəllifləri həmçinin qeyd edib ki, 14 yaşdan az uşaqların süni intellektdən istifadə etməsi üçün valideynlərin razılığı tələb olunacaq.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik